Yubiley mərasimində təhsil naziri Misir Mərdanov iştirak edib.

Tədbiri institutun rektoru Aqiyə Naxçıvanlı açaraq Ramiz Məmmədzadə təbrik edib, onun şəxsiyyətini səciyyələndirən keyfiyyətlərdən söz açıb və institutun kollektivi adından yubilyara hədiyyə təqdim edib.

Azərbaycan Müəllimlər İnstitutunun dosenti Rəşid Cabbarov R.Məmmədzadənin zəngin həyat yolu və elmi-pedaqoji fəaliyyəti barədə mərasim iştirakçılarına ətraflı məlumat verib.

Tədbirdə çıxış edən təhsil naziri Misir Mərdanov 80 yaşının tamam olması münasibətilə R.Məmmədzadəni təbrik edib. Yubilyarı "müəllimlər müəllimi" adlandıran nazir onun cəmiyyətdə böyük nüfuz sahibi, bütün ömrünü şərəflə yaşamış az-az insanlardan olduğunu vurğulayıb. Nazir R.Məmmədzadəni çalışdığı bütün vəzifələrdə işinə məsuliyyətlə yanaşması, daim yenilik hissi ilə yaşaması, səmimiliyi, sadəliyi, alicənablığı və s. kimi keyfiyyətləri ilə böyüməkdə olan nəslə örnək olduğunu diqqətə çatdırıb.

Yubiley mərasimində Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri Əbdül Əlizadə, Respublika Təhsil Şurasının sədri Əjdər Ağayev, Bakıdakı 177 saylı məktəbin direktoru Həqiqə Məmmədova və başqaları çıxış edərək, R.Məmmədzadəyə təbriklərini çatdırıblar.

Sonda yubilyara gül dəstələri və hədiyyələr təqdim olunub.